**AZƏRBAYCAN RESPUBLIKASI**

*Əlyazması hüququnda*

# XX ƏSR AZƏRBAYCAN POEZİYASINDA FOLKLOR SİMVOLİKASI (1960-2000-ci illər)

İxtisas: 5716. 01 – Azərbaycan ədəbiyyatı

5719.01 – Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Aygün Ərziman qızı Qasımova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan Şifahi Xalq Ədəbiyyatı və ədəbi abidələr şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor
**Məhərrəm Paşa oğlu Qasımlı**

Rəsmi opponentlər:

**Allahmanov Mahmud Qara oğlu**
filologiya elmləri doktoru, professor

**Quliyeva Safura Hüseyn qızı**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Bağırova Könül Sabir qızı**
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komisiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
_______________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
_______________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
_______________ **Əlizadə Bayram oğlu Əsgərli**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Şifahi xalq ədəbiyyatı yalnız özünün diqqətçəkici poetik-üslubi mətn cazibədarlığı və janr əlvanlığı, zəngin mövzu və ideyalar aləminin genişliyi ilə diqqəti çəkmir, bu təkrarsız mill-mənəvi dəyərlər xəzinəsinin bir mühüm cəhəti də odur ki, o zaman - zaman ədəbi düşüncəyə təsir göstərmək, onun sənətkarlıq baxımından inkişafında fəal şəkildə iştirak etmək imkanlarına da malikdir. Bu mənada folklor doğrudan-doğruya statik, dominant mahiyyətdən fərqli bir xüsusiyyət daşıyıcısı missiyasını da yerinə yetirir: müasir ədəbi-bədii gedişata təsir göstərmək, onun mövzu və sənətkarlıq baxımından inkişafında əhəmiyyətli dərəcədə rol oynamaq, onu yeniləşdirmək, yeni bir ovqatla hərəkətləndirmək funksiyasını icra edir. Əlbəttə, bu, müxtəlif üsul və vasitələrlə üzə çıxa bilir. Ədəbi-bədii dövriyyədə sözügedən iştirak dərəcəsini yalnız mövzu, süjet, motiv səviyyəsi ilə məhdudlaşdırmaq olmaz. Bu sırada dil, üslub, təhkiyə ilə yanaşı, mətnaltı yazı manerası, eyham və işarələrlə, rəmz və simvolik obrazlarla tarixi, həm də çağdaş gerçəkliklərin təqdim ustalığını xüsusi olaraq vurğulamaq lazımdır.

Folklor milli-mənəvi yaddaşın ən etibarlı saxlanclarından biri olmaqla, milli kimlik düşüncəsinin, etnik-mədəni yaşam tərzini daşıyan ənənələri qoruyaraq hifz edən, zəngin və əvəzi olmayan enerji mənbələri sırasındadır. Azəbaycan şifahi xalq ədəbiyyatının ən kiçik janrlarından tutmuş, ən böyük epik nümunələrinə kimi çoxsaylı örnəklərində yüksək bəşəri dəyərlər, insanpərvərlik və humanizm ideyalarının tərənnümü həmişə üst qatda görünən, insanı və insanlığı ali hiss və duyğular aləminə aparan keyfiyyətlərdəndir. Bu məziyyətlər yazılı ədəbiyyata da ən müxtəlif yönlərdən öz müsbət təsirini göstərməkdədir. Bu zəngin irsə məxsus olan mövzu və obrazların, motiv və süjetlərin yazılı ədəbi-bədii düşüncəyə nüfuz etmə imkanlarını ortaya çıxaran və onu şərtləndirən amillər mahiyyət etibarilə geniş bir spektri çevrələyir. Folklor mətninə maraq, onun obrazlar aləminə məxsus ən mühüm cizgilərinin yazılı bədii əsərin tərkibinə yerləşdirərək həmin obraz və vasitələrdən çeşidli məzmun çalarları, eləcə də poetik-üslubi görüntülər yaratmaq yüzillikləri əhatə edən böyük tarixi təcrübəyə malikdir. Ədəbiyyat və sənət aləmində öz aktuallığını zaman-zaman qoruyub saxlayan iki mühüm kateqoriya-

ənənə və novatorluq əslində tarixiliklə müasirliyin bir ədəbi-estetik kateqoriya kimi qorunub saxlanılmasına xidmət edən əsas keyfiyyətlər sırasına yer alır. Yazılı ədəbiyyat bütün zamanlarda bu zəngin qaynaqlardan bir sənətkarlıq örnəyi kimi faydalanmışdır. Klassik sənətkarlardan Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, İmadəddin Nəsiminin, Qazi Bürhanəddinin, Şah İsmayıl Xətainin, Məhəmməd Əmaninin, Saib Təbrizinin, Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Məhəmməd Hadinin, Abbas Səhhətin, Hüseyn Cavidin, Səməd Vurğunun, Osman Sarıvəllinin, Mikayıl Müşfiqin, Rəsul Rzanın və başqalarının yaradıcılığında folklor ən müxtəlif məqamlarda və səviyyələrdə öz dəyərli yerini almışdır. Bu ənənə daim dövriyyədə olan fasiləsiz bir ədəbi-tarixi proses kimi indi də davam edir. Ona görə də tədqiqat üçün seçilən XX əsrin ikinci yarısındakı Azərbaycan poeziyasının mənzərəsi də diqqətçəkici və aktualdır. Bunun bir diqqətçəkici cəhəti də odur ki, XX əsrin 60-cı illəri ədəbi-bədii təcrübədə keyfiyyət baxımdan tamamilə yeni bir mərhələdir, onun özünəməxsus keyfiyyət göstəriciləri ilə cilalanmasında folklor elementləri intensiv şəkildə iştirak edir. Doğrudur, digər ədəbi növ və janrlarda yaradılan nümunələrdə də bu cəhət özünü kifayət qədər qabarıq nümayiş etdirir. Poeziyada isə folklora münasibətin daha dərin qatlarda özünü göstərməsi, daha dərin mətləblərlə bağlı ona müraciət olunması heç də təsadüfi deyildi. Məlumdur ki, əsas fikrin və ideyanın çatdırılmasında poeziya böyük imkanlara malikdir. Bədiilik və obrazlılıq həqiqət və gerçəkliyin emosional, təsiredici səviyyədə təqdimində poeziyanın xüsusi yeri var. Bu anlamda fikir və mülahizənin xəlqi kolorit, folklora məxsus üstüörtülü üsul və vasitələrlə təqdimi üçün söz sərraflarının folklora çeşidli yönlərdən üz tutması olduqca zəruridir.

Tədqiqatda XX əsrin 1960-2000-ci illər ədəbi təcrübəsinin poeziya sahəsindəki bədii-üslubi axtarışlarının folklorla, xüsusən də məhz bədii manera kimi folklor simvolikası ilə əlaqəsi milli-tarixi kimlik, soykökə qayıdış, istiqlal düçüncəsi fonunda araşdırılır. Bu mənada sözügedən keyfiyyət dəyişmələri həm sovet ideologiyasının bərqərar olduğu dövrlərdə, həm də müstəqillik ərəfəsi və müstəqillik dönəmindəki ümumi ədəbi mənzərəni folklor və ədəbi proses müstəvisində təhlilə yönəltməyə zəmin hazırlayır.

Elmi-nəzəri ədəbiyyatşünaslıqda 60-cı illərin yenilikçi, novatorçu mahiyyəti barədə geniş bəhs edilmiş, onun keçmiş Sovet ittifaqı və dünya çapında baş verən siyasi-ideoloji proseslərlə əlaqələri açıqlanmışdır. Bu prosesdə qürurverici istiqamətlər sırasında poetik düşüncənin tarixi-mifoloji yaddaşa, folklorun ruhundan gələn azadlıq, müstəqillik, milli-tarixi kimliyi tanıma və ona güvənmə yolundakı axtarışları mühüm əhəmiyyət daşıyır. Bu anlamda poeziyanın folklor simvolikasına xüsusi əhəmiyyət verməsi bu gün də öz tarixi dəyərini qoruyub saxlayır. S.Rüstəm, R.Rza, O.Sarıvəlli, B.Vahabzadə, H.Arif, N.Xəzri, M.Araz, Qasım Qasımzadə, H.Kürdoğlu, N.Həsənzadə, M.Yaqub, M.Günər, X.R.Ulutürk, M.İsmayıl, Z.Yaqub, M.Aslan, R.Rövşən, Dilsuz və başqa istedadlı şairlərin bu yöndə yaratdıqları əsərlər öz tədqiqat aktuallığını saxlamaqdadır.

Folklor və yazılı ədəbiyyat arasındakı qarşılıqlı əlaqələr uzun illərdir ki, elmi-nəzəri fikirdə ən müxtəlif baxış və münasibət müstəvisində araşdırılır, bu istiqamətdə ciddi və sanbalı ilə seçilən tədqiqat nümunələri meydana gəlir. Akademiklərdən Məmməd Arif Dadaşzadənin, Həmid Araslının, Mirzə İbrahimovun, Tofiq Hacıyevin, İsa Həbibbəylinin, Muxtar İmanovun, Nizami Cəfərovun, Kamran Əliyevin, professorlardan Məmmədhüseyn Təhmasibin, Bəhlul Abdullanın, Qəzənfər Paşayevin, Maarifə Hacıyevanın, Məhərrəm Qasımlının, Xatirə Bəşirlinin, Mahmud Allahmanlının ayrı-ayrı vaxtlarda nəşr olunan məqalə və araşdırmaları mövzunun tədqiqi istiqamətindəki elmi-nəzəri axtarışların mühüm bir hissəsini təşkil edir. Bundan əlavə, folklor və yazılı ədəbiyyat probleminin tədqiqi baxımından professor Arif Abdullazadənin, professor Maarifə Hacıyevanın, professor Nizami Xəlilovun, filologiya elmləri doktoru Vaqif Yusiflinin, filologiya elmlər doktoru Elnarə Akimovanın, filologiya üzrə fəlsəfə doktorları Aynur Xəlilovanın, Solmaz Fərzəliyevanın (Həyatovanın), Nərgiz Abdullayevanın (Cabbarlının), Əpoş Vəliyevin, Vüsalə İsgəndərovanın, Ruhəngiz Əliyevanın, Səadət Bayramovanın tədqiqatlarında da folklor və yazılı ədəbiyyat əlaqələri öyrənilmişdir. Filologiya elmləri doktoru Nizami Muradoğlunun (Məmmədovun) "Çağdaş Azərbaycan poeziyasında folklor ənənələri" adlı monoqrafiyası bilavasitə mövzunun araşdırılması istiqamətində mühüm önəm daşıyır. Filologiya üzrə fəlsəfə doktoru Günay Qarayevanın "Müasir peyzaj lirikası" monoqrafiyasında

da folklor simvolikası ilə bağlı dəyərli təhlillərə rast gəlinir. Bununla yanaşı, türk tədqiqatçısı Y.Kalafatın, rus müəlliflərindən M.M.Baxtinin, V.Qusevin araşdırmalarında folklorizm, onun ədəbi-tarixi təcrübə ilə əlaqəsi məsələlərinə də önəmli yer ayrılmışdır.

**Tədqiqatın obyekt və predmeti.** Dissertasiya işinin obyektini 1960-2000-ci illər Azərbaycan poeziyası təşkil edir. Həmin dövrə məxsus poetik axtarışlarda folklor simvolikasına müraciətin səbəb və nəticələri, bu istiqamətdə gedən ədəbi-bədii axtarışların miqyas əhatəsi, mətnaltı yazı manerası kimi tarixi yaddaş realilərinin, mifopoetik obrazlara yönəlməni şərtləndirən tarixi zəminin öyrənilməsi, eləcə də folklor vahidlərinin simvollaşma imkanlarının aydınlaşdırılması araşdırmanın predmeti kimi götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri.** İddiaçının əsas məqsədi Azərbaycan poeziyasının 1960-2000-ci illər arasını əhatə edən konkret bir zaman ərzində folklor simvolikasından istifadə üsullarını üzə çıxarmaqdır. Bunun üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

–Folklor simvolikasının səciyyəsini vermək və 1960-2000-ci illər Azərbaycan poeziyasında onun yerini və işlənmə dərəcəsini müəyyənləşdirmək;

– XX əsrin 60-cı illərindən başlayaraq poeziyada fəal şəkildə yer alan folklor simvolikasının işlənmə imkanlarını üzə çıxarmaq;

– Tarixi obrazların bu sırada xüsusi yerini və mövqeyini müəyyənləşdirmək:

– Folklor simvolikasının peyzaj lirikasında yer almaq imkanlarını aydınlaşdırmaq;

– Müxtəlif ədəbi nəsillərin təmsilçiləri olan qələm sahiblərinin yaradıcılıq axtarışlarında folklor obrazlarına münasibətin fərdi səciyyəsi barədə təsəvvür yaratmaq;

– Ayrı-ayrı onilliklərdə folklora məxsus simvolik obraz və düşüncənin, mifopoetik təxəyyül imkanlarının ədəbi-bədii düşüncəyə gətirdiyi üslubi özünəməxsusluğu dəyərləndirmək;

– Folklor mətnlərindən poeziyaya sirayət edən rəmzi-məcazi səciyyəli milli-mənəvi dəyərlərin, adət-ənənələrin, elat həyatının özəlliklərinin təsvir və təqdimində nail olunan başlıca məziyyətləri ümumiləşdirmək;

– Bədii dilin zənginləşməsi istiqamətində folklor mətnlərindən

gələn xəlqi koloritin, şifahi nitq etiketlərinin, canlı ünsiyyətdən - kommunikativ münasibətdən yazılı ədəbi təcrübədə özünə yer tapan yeni çalarların, bədii təsvir vasitələrinin əhəmiyyətini aydınlaşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiya işinin nəzəri-metodoloji əsasını müqayisəli-tarixi metod təşkil edir. Tədqiqat və araşdırmanın mahiyyətindən asılı olaraq təhlilin, elmi həllinə cəhd göstərilən problem məsələlərin izah və şərhində nəzəri-analitik metoddan da istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

– XX əsrin 60-cı illərindən başlanan yeni yaradıcılıq mərhələsinin poeziyasında folklor təhkiyəsinin və simvolikasının aparıcı üslubi istiqamət kimi mövqeyini üzə çıxarmaq;
– Poeziyanın yaradıcılıq axtarışlarında nəzərə çarpan keyfiyyət dəyişmələrində obrazlılıq və bədiilik kimi məziyyətləri barədə əyani təsəvvür yaratmaq;
– Təbiət obrazlarının poetik fikrin ifadə imkanlarındakı xüsusi yerini aşkara çıxarmaq;
– Dağ, daş, çinar kimi təbiət simvolikasına məxsus anlayışların ifadə etdiyi ideya-məzmun və poetik mündəricənin özünəməxsusluğuna diqqət yönəltmək;
– Peyzaj lirikasının və el ağsaqqalı obrazının bir sənətkarlıq təcrübəsi kimi şərtləndirilməsini doğuran poetik mətləblərin faktik materiallar əsasında dəyərləndirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyini şərtləndirən mühüm xüsusiyyətlərdən biri, hər şeydən əvvəl, tədqiqat üçün əsas obyekt seçilən ədəbi-bədii nümunələrə tamamilə fərqli və yeniləşən dəyərlər prizmasından münasibət bildirilməsidir. Bu baxımdan müasir ədəbiyyatşünaslığın nailiyyətlərindən çıxış edilərək müxtəlif ədəbi nəsilləri təmsil edən müəlliflərin fərdi yaradıcılıq stixiyasına məxsus səciyyəvi cəhətlərin folklor motivləri və obrazları ilə qarşılıqlı müqayisədə təhlilə yönəldilməsidir. Folklor simvolikasının tarixi-mənəvi səciyyəsi, həmin keyfiyyətlərin yazılı ədəbiyyata, o cümlədən də poeziyaya keçməsinin ədəbi-estetik zərurəti və mənzərəsi məhz bu tədqiqatda öz geniş monoqrafik həllini tapmışdır. Folklordan, xalq yaradıcılığının zəngin xəzinəsindən yaradıcı şəkildə bəhrələnməklə folklor simvolikasından istifadənin çoxçeşidli maneraları 1960-2000-ci

illər poeziyasında xüsusi mövqeyi ilk dəfə bu araşdırmada konkret nümunələr əsasında üzə çıxarılır. Təhlilin tamamilə yeni bir tərzdə və yanaşma əsasında aparılmasını gerçəkləşdirən müddəalar sırasında təbiət və tarix obrazlarına müraciətin mahiyyətində dayanan əsas məqsəd və qayənin – milli müstəqilliyin, vətən və xalq taleyinin müqəddəratı ilə bağlılığı tədqiqat boyu xüsusi şəkildə vurğulanmışdır.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində əldə olunan nəticələrdən XX əsr Azərbaycan ədəbiyyatı fənnində tədris proqramı və metodik vəsait hazırlanan zaman mənbə kimi istifadə etmək olar.

Dissertasiya işindən, onun tezis və müddəalarından filoloji təmayüllü universitetlərin bakalavr və magistr pilləsində təhsil alanlar tədris vəsaiti kimi faydalana bilərlər. Ali məktəblərdə tədris olunan xüsusi kurslarda, folklor yönümlü tədqiqat laborotoriyalarında dissertasiyanın elmi nəticə və praktik müddəalarından faydalanmaq olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan şifahi xalq ədəbiyyatı və ədəbi abidələr şöbəsində yerinə yetirilmişdir.

Dissertasiya işinin fəsilləri ayrı-ayrılıqda şöbənin seminarlarında müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları və nəticələri iddiaçının Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında dərc etdirdiyi məqalələrində, onun beynəlxalq və respublika səviyyəli elmi konfrans, sessiya və seminarlardakı məruzə və çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan şifahi xalq ədəbiyyatı və ədəbi abidələr şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

**Dissertasiya "Giriş" (11.970), iki fəsil (I fəsil 2 paraqraf, 87.171 şərti işarə, II fəsil 2 paraqraf, 102.446 şərti işarə,) "Nəticə" (6.370) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.**

Dissertasiyanın ümumi həcmi 207.957 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Folklor simvolikası poeziyada obrazlı düşüncə və xəlqi koloritin qaynağı kimi"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. Həmin fəslin **"1960-2000-ci illər poeziyasında folklor və təbiət sintezindən gələn obrazlı düşüncə"** adlı birinci paraqrafında xalqın milli-mənəvi dəyərlərinin, əxlaq və dünyagörüşünün, məişət və təsərrüfat həyatının özəlliklərini, etnoqrafik cizgilərini əks etdirən məqamlar rəmz və simvollar vasitəsi ilə ədəbi-bədii düşüncədə ifadə üsullarının tarixən mövcud olan yaradıcılıq ənənələrinə diqqət yönəldilir, bu zəngin poetik örnəklərin daha sonralar yazılı ədəbi-bədii nümunələrə sirayət etmə xüsusiyyətləri üzərində geniş təhlillər aparılır. Bu baxımdan nəzəri ədəbiyyatşünaslıqda təbiət və insan surətləri səviyyəsində təqdim və təsnif olunan simvolların səciyyəvi cəhətlərinə yer ayrılması heç də təsadüfi hesab olunmamalıdır. Professor Mikayıl Rəfilinin simvolla bağlı irəli sürdüyü mülahizələrdə məsələnin bu tərəfi özünün dərin elmi şərh və təfsirini tapır. O, vaxtilə simvola məxsus olan bu xarakterik məqamları iki amillə vəhdətdə əsaslandıraraq yazırdı: *"Simvol da xalq şeirində gördüyümüz qarşılıqlı surətlər üzərində inkişaf etmişdir. Əvvəlcə insan həyatının hadisələri təbiət hadisələri ilə qarşılaşdırılırdı. Məsələn, iki sevgilinin sevişməsi güllə bülbülün münasibəti ilə qarşılaşdırılırdı. Sonralar, bu surətlər tez-tez təkrar edildiyindən, artıq bu qarşılaşdırmağa ehtiyac qalmamışdır. Vərdiş üzrə, gül deyildiyi zaman məşuqə, bülbül deyildiyi zaman aşiq yada düşür"*[1].

Klassik ədəbiyyatıda Xaqani Şirvaninin, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Qazi Bürhanəddinin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, Məhəmməd Əmaninin və Saib Təbrizinin... yaradıcılığında folklor süjet və motivlərindən istifadə üsulları və zaman-zaman bu zəngin xəzinədən əsas ideya və mətləblərin ifadəsində yaradıcı çəkildə yararlanma təcrübəsinin geniş vüsət alması belə ardıcıl və fasiləsiz əlaqə və təsirin mövcudluğundan xəbər verir. Poetik intonasiyada folklor anlayışlarına məxsus bütün vasitələrdən yaradıcı şəklidə istifadə edilməsi, milli-mənəvi düşüncənin və tarixi yaddaşın ən dərin qatlarına nüfuz etmək, onu çağdaş dövrün həqiqətləri ilə bir araya

---

[1] Rəfili, M.H. Simvol // Ədəbiyyat nəzəriyyəsinə giriş. Redaktoru: Sədi Əfəndiyev. – Bakı: APİ-nin Nəşriyyatı, – 1958. – s.141.

və müqayisə müstəvisinə çıxarmaq meyli intensiv və fasiləsiz xarakter almağa başlayır.

El bayatılarımızdan başlanıb ən müxtəlif folklor örnəkləri boyunca yayılan "daş" obrazının rəmzi-semantik funksiyaları əslində simvollaşmaya gedən bədii-estetik prosesi çox aydın göstərir:

*Eləmi daşdı canı,*
*Kəkliyin daşdı canı.*
*Mən dərdi tək çəkirəm*
*Deyirlər, daşdı canı*[2].

Belə bir yanaşma tərzində daşı həyatda, cəmiyyətdə gedən proseslərlə əlaqələndirmək cəhdi, milli adət-ənənə ilə bağlı məqamlarda onun iştirakını qabartmaq aparıcı bir məziyyətə çevrilir. H.Arifin 1960-80-cı illərdə qələmə aldığı "Daşlar", "Daş özül", "Başdaşı", "Qədim şəhər" kimi şeirlərində daş ən müxtəlif rakurslardan poetik təhkiyənin predmeti seçilir, burada ahəng və vəzn mövzunun öz daxili tələbatından yaranır ki, bu da şeirdə ümumi vəhdət və harmoniyanın gerçəkləşməsini reallaşdırır.

XX əsr poeziyasının yenilikçi şairi və 60-cı illər poeziyasının istedadlı nümayəndəsi Əli Kərimin "Daş" şeiri də daş obrazına maraqlı rəmzi səciyyə verir:

*Yarımçılpaq,*
*Qədim insan.*
*Düşməninə bir daş atdı,*
*Qana batdı.*
*Daş düşmədi*
*Amma yerə,*
*Uçub getdi,*
*Üfüqlərdən üfüqlərə.*
*Deməyin ki, daş yox oldu*
*Daş çevrilib bir ox oldu.*
*Oldu qılınc,*
*güllə, mərmi*[3].

---

[2] El düzgüləri, elat söyləmələri / Hazırlayanı: M.Qasımlı; redaktoru: A.Hüseynova. – Bakı: Azərnəşr, – 1993. – s.36.
[3] Kərim, Ə.P. Seçilmiş əsərləri. Şeirlər və poemalar. [2 climbdə] / Ə.P. Kərim., tərtib edəni: Paşa Əlioğlu. Redaktoru: Rəşad Bəydəmirli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c..1 . –1991. – s. 33.

Xalq şairi Nəriman Həsənzadənin istər xalq şeiri şəkillərindən olan gəraylılarında, istərsə də müasir səpkidə qələmə aldığı şeirlərində daşa verilən poetik məna isə tamamilə fərqli səciyyə daşıyır. Onun "Daş ana" şeirinin adı və məzmun-mündəricəsi yadda qalandır. Şair həmin anlayışın ifadə etdiyi məna və semantikanı tədricən açmağa nail olur:

*Həyatda bir sirr var, inan, ay oğul,*
*bu sirr açılmayıb qədimdən belə.*
*Daşdan yonulubdur, anan, ay oğul,*
*daşı sevməliyik biz innən belə* [4].

Professor Maarifə Hacıyeva "Folklor poetikası" monoqrafiyasında xalq şeiri şəkillərindən istifadə yollarının ədəbi təcrübədə geniş yer almasına münasibət bildirərək belə bir nəticəyə gəlir: *"Azərbaycan şerinin lirik janrlar sistemində xalq lirikası janrlarının mühüm yer tutduğu bir həqiqətdir. Şairlər bu janrlardan istifadə etmək yolu ilə yeni məzmununu məharətlə ifadə etməyə nail olmuşlar. Bu nöqteyi-nəzərdən qoşmanın şairlərimizin yaradıcılığında maraqlı, zəngin xüsusiyyətləri vardır"*[5].

1960-ci illərdən xalq şeirinin müxtəlif forma və şəkillərində yazıb-yaradan, folklor süjet və motivlərindən, üslub və təhkiyə tərzindən özünəməxsus tərzdə yararlanan şairlərdən biri də Fikrət Sadıqdır. Şairin "Daş-ağac-insan" silsiləsi poeziyanın keçən əsrin 60 - 70-ci illərində bu istiqamətdəki yaradıcılıq axtarışlarının ümumi mənzərəsi barədə dolğun təsəvvür yarada bilir:

*Əvvəl dünyaya daşlar gəlib,*
*Təbiət səxavətlə səpələyib,*
*Dağlara, çöllərə, çaylara daşları.*
*Haçaqsa ovulub tökülüb Yerə*
*Kainatın göy qurşağı –*
*Ağ, mavi, yaşıl, sarı.*
*Cürbəcür boyda,*
*Cürbəcür biçimdə,*

---

[4] Həsənzadə, N.Ə. Seçilmiş əsərləri. [7 cilddə] / N.Ə.Həsənzadə, tərtib edəni: Nazim Həsənzadə // Ön sözün müəllifi: professor Buludxan Xəlilov. Redaktoru: Güldanə Əmrullaqızı. – Bakı: Prometey, – c.1. –2010. – s.76.

[5] Hacıyeva, M.H. Folklor poetikası. Elmi redaktoru Şamil Salmanovun; nəşriyyat redaktoru: İslam Sadıq. – Bakı: Azərnəşr, –2006. – s.127.

*Cürbəcür yaşda*[6].

*olan qayaları, dağları insan ?*

Məmməd Arazın bir çox şeirlərində leytmotivə çevrilən dağ-qaya-xalq simvollaşması həm folklora söykənmək, həm də sənətkarın öz bədii-estetika düşüncəsini təqdim etmək anlamında ümumilləşdirici bir yanaşmadır:

*Şair, qayalara-dağlara söykən* [7].

Əslində buradakı simvol Məmməd Araz ruhunun kredo xəttidir. Akademik İsa Həbibbəyli Məmməd Araz poeziyasındakı təbiət anlayış və predmetlərindən bəhs edərkən bunun məxsusi rolunu, funksional-semantik çalarlarını belə müəyyənləşdirmişdir: *"Məmməd Araz şeirindəki Dağ və Qaya mövzusunda yazılmış çoxsaylı şeirlər də onun daş haqqındakı poetik düşüncələrindən doğulmuşdur. Məmməd Araza məxsus "İnsan – qayalar", "Şair qayalara, dağlara söykən", "Əlvida, dağlar" şeirləri Azərbaycan poeziyasında həmin mövzuda meydana çıxmış ən yaxşı şeirlər sırasında şah əsərlər olaraq dağ kimi əzəmətlə durur"*[8].

Məmməd Araz çinar obrazı vasitəsilə xalqın, millətin ən ağrılı, taleyüklü qayğılarını, yaşantılarını dilə gətirməyə nail olur. "Araz üstə çinar gördüm" şeiri bu baxımdan diqqəti cəlb edir.

Göründüyü kimi, daş obrazı ilə yanaşı, çinar da şeirdə irəli sürülən əsas ideyanın ifadəsi üçün bədii-estetik zəmin hazırlayır, birliyin, bütövlüyün, qədimlik və ilkinliyin daşıyıcısı olmaq etibarilə rəmzi-məcazi səciyyəyə malik poetik obraz səviyyəsinə qaldırılır.

Ramiz Rövşənin poeziyasında olduğu kimi, nəsrində də "daş" obrazı mistik bir anlamda, reallqdan fərqli bir düşüncə paradiqmasından yeni məna və məzmunla cilalanır. Onun "Daş" adlı şeiri şair Əli Kərimə həsr olunub. Şeirdə təbiət anlayışlarından suyun, ağacın, quşun daşla bağlı kəsb etdiyi situativ məqamlara münasibət aparıcı yerlərdən birini tutur:

*Bu sulara kim daş atdı?*
*Bu suları kim oyatdı?*

---

6 Sadıq, F.A. Seçilmiş əsərləri. Redaktoru: İlyas Tapdıq. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –1991. – s.8.

7 Araz, M.İ. Seçilmiş əsərləri. Şeirlər poemalar. Redaktoru:V.Rüstəmzadə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –1986. – s.27.

8 Həbibbəyli, İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Elmi redaktoru: professor Yavuz Axundlu. – Bakı: Nurlan, –2007. – s.299.

*Sular oyandı, daş yatdı,*
*ağlama, daşım, ağlama*[9].

Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığında folklor təfəkküründən qaynaqlanan deyim və duyum tərzinin yaratdığı özünəməxsus ahəng və intonasiya da mühüm əhəmiyyət daşıyır. Şair bir şeirində öz yaradıcılıq stixiyasını nişan verən məqamların insan və təbiətlə bağlı tərəflərinə aşağıdakı şəkildə diqqət yönəldir:

*Bir daş olam, dönəm burda kaş daşa,*
*Arxa durur, dayaq olur daş daşa.*
*Min illərdi dağlar verib baş-başa,*
*Xəbislikdən, xəyanətdən xəbərsiz*[10].

Akademik Nizami Cəfərov Zəlimxan Yaqubun yaradıcılıq fərdiyyətini üzə çıxaran mülahizələrində belə bir qənaətə gəlir: *"Zəlimxan Yaqub xalqın milli (və demokratik) dövlətçilik hisslərinin, duyğularının (və mentalitetinin) ifadəçisidir. Zəlimxan Yaqub yaradıcılığı böyük sənətin əbədi qanunlarına uyğun gələn, ədəbi tələblərə cavab verən bir yaradıcılıqdır"*[11].

Konkret bir təbiət parçası: dağ-daş, qaya, çinar, Araz çayı və s. obrazların folklor ruhu daşımaqla XX əsrin ikinci yarısında etibarən poeziyada mühüm mövzu istiqamətlərindən biri kimi aktuallıq qazanmasını şərtləndirən amillərdən biri, heç şübhəsiz ki, poeziyada fəlsəfi ümumiləşdirmələrə artan meyilin aparıcı mövqe tutması ilə sıx bağlı idi.

Birinci fəslin II paraqrafı **"Folklor simvolikasında xəlqi koloritin funksional səciyyəsi"** adlanır. Zaman-zaman formalaşaraq əsrlərin sınağından çıxan şifahi xalq ədəbiyyatı özündə çeşidli yaradıcılıq sahələrini birləşdirir. Şübhəsiz ki, insanın təbiətlə, ətraf aləmlə əlaqə və münasibətləri, həyat və zaman haqqında düşüncə və təəssüratları da özünəməxsus vasitələrlə folklor örnəklərində öz ifadəsini tapır.

Bu dönəmdə folklorun ənənəvi "xəlqi kolorit" funksiyası artıq yeni

---

[9] Rövşən, R.M. Göy üzü daş saxlamaz. Şeirlər və poema. Redaktoru: Eldar Quliyev. – Bakı: Yazıçı, – 1987. – s.60.
[10] Yaqub M.S. Bu dünyanın qara daşı göyərməz. Redaktoru: Məmməd Nazimoğlu. – Bakı: Azərnəşr, – 2007. – s.74.
[11] Cəfərov, N. Q. Zəlimxan Yaqub. Redaktoru: Dəyanət Osmanlı. – Bakı: AzAtaM, – 2014. – s.8

bir keyfiyyət atributunu da üstüörtülü şəkildə öz içərisinə alır. Folklor və təbiət obrazı kimi görünən, xan çinar, dəmirağac, palıd, qartal, dərdli Araz, dəli Kür, tufanlı Xəzər, geniş və əsrarəngiz Muğan çölləri, eləcə də tarixi-etnoqrafik yaddaşa çevrilən Qız qalası, Əlincə qalası, Gülüstan qalası, Qobustan qayaları, Qavaldaş, Gəmiqaya, Çənlibel, Möminə Xatun türbəsi, Dəmirqapı Dərbənd, Narınqala, Çıraqqala və ən nəhayət, müdrikliyin Dədə Qorqud, bahadırlıq və qəhrəmanlığın Babək, Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm bu dönəmdə bədii ədəbiyyatın digər sahələri kimi poetik yaradıcılıqda yeni bir simvolik statusa çevrilir. Təbriz, Savalan, Ərk qalası, Kür, Araz, çinar və palıd kimi anlayışlar silsiləsinin poeziyada milli hiss və duyğuların, bütöv Vətən obrazının yaradılmasında fəal və işlək bir mövqe qazanması xalq şairləri Süleyman Rüstəmin, Rəsul Rzanın, Balaş Azəroğlunun, Söhrab Tahirin, Qasım Qasımzadənin, Hüseyn Arifın, Nəbi Xəzrinin, Bəxtiyar Vahahzadənin, Xəlil Rza Ulutürk, İslam Səfərlinin şeirlərində özünü bütün qabarıqlığı ilə göstərir. Bu baxımdan Süleyman Rüstəmin "Düşüncələr" adlı şeirində milli düşüncənin, adət-ənənənin, xalqın bütövlük, istiqlal arzu və istəklərinin poetik bir dillə tərənnümü təbii və inandırıcı təsir bağışlayır:

*Tutdu sağ əlimdən zamanın əli,*
*Şeirimin bülbülü o vaxtdan bəlli.*
*Talış meşəsində Babək gövdəli,*
*Dəmir ağacının budağındadır*[12].

Maraq doğuran bir cəhət odur ki, bu xarakterik bənddə dəmirağac kimi nəhəng gövdəli ağacın Babəkə bənzədilməsi faktı özünün gözlənilməzliyi, doğurduğu assosiativ düşüncə tərzi ilə əlamətdarlıq qazanır. Burada "dəmirağac" xalqın gücünün, qüdrətinin də simvoludur. Şeirdə bəhs olunan tarixi yer-yurd adları (Qobustan, Ərk qalası, Qız qalası, Əlincə qalası, Savalan, Şahdağ: şəxsiyyətlər: Koroğlu, Babək, Qaçaq Nəbi, Səttarxan təbiət lövhələri milli-tarixi yaddaşın uzaq və yaxın zaman sərhədlərini, xalqın mentalitetini, azadlıq və istiqlal mübarizələrində qazandığı qələbələri, düçar olduğu ədalətsizlikləri təbii boyalarla təsvirində özünəməxsus rol oynayır.

Nəbi Xəzrinin "Çinar ömrü" şeirində o, fərdi hisslərini, onu duyğulandıran emosional ovqatı məhz çinarla əlaqəli şəkildə diqqətə

---

12 Rüstəm S.Ə. Əsərləri. Şeirlər və poemalar. [6 cilddə] / S.Ə.Rüstəm, redaktoru: Adil Cəmil. – Bakı: Yazıçı, – c.2. –1984. – s.106.

çatdırır, bir ömür boyu yaşanılan və yaşanılacaq anları bu anlayışın ehtiva etdiyi ictimai məna və məzmunla cilalandırmağa müvəffəq olur:

*Çinarla dil açdı söz  də, ilham da.*
*Yarpaqlar üstümdə qızıllı kölgə.*
*Bir çinar ömrünü yaşamasam da,*
*Bir çinar səsində yaşadım bəlkə!* [13].

Ana yurd, Azərbaycan anlayışını özündə əks etdirən atributlar içərisində Xan çinar və Göygöl  simvolik obrazları ilə Nəbi Xəzri əslində Vətənin təbii gözəlliyi ilə bərabər, onun bölünməz xəritəsini, milli-mənəvi dünyasına məxsus xüsusiyyətləri də özünəməxsus şəkildə görüntüyə gətirir:

*Əgər ki, yıxılsam çinar göstərin,*
*Mən ona söykənib arana baxım.*
*Gözlərim görməsə Göy gölü verin*
*Mən onun gözüylə cahana baxım*[14].

Maraq doğuran bir cəhət də odur ki, Çinar obrazının folklor səciyyəsini diqqət önündə saxlayan şair bayatılardan ibarət silsilə şeirlərini də elə bu ad və sərlövhə altında təqdim edir: "Çinar bayatıları"!

Hüseyn Kürdoğlunun  "Çinar meşəsi" "Cəbrayıl çinarı" adlı şeirində çinar bir yurd sevgisini, Vətənə qırılmaz tellərlə bağlılığı ifadə etmək üçün bədii vasitəyə çevrilməklə yanaşı, həm də bu doğma yerlərin başı üzərində dolaşan qara buludlara, qorxunc hadisə və olaylara işarənin olduğu da aydın şəkildə anlaşılmaqdadır:

*Elə bil hər budaq min bir ovucla*
*Səhər şəfəqindən içmək istəyir.*
*Leylək yuvasından qoyduğu tacla*
*Ucalıb şah budaq buluda dəyir*[15] .

Ancaq hələ baş verəcək müdhiş və məkrli oyunlardan uzaq bir həyat yaşayan çinarın köksündə sevgi anlarını, tarixçələrini nişan verən yazıları oxumaq, bir-birinə dəruni sevgilərlə bağlanan gənclərin könül çırpıntılarının, qəlb haraylarının bir tale və alın yazısı kimi həkk olunması,

---

[13] Xəzri N.Ə. Torpaq sənə and içirəm. Şeirlər və poemalar. Redaktoru: Minarə Əliyeva. – Bakı: Yazıçı, –1989. – s.54.
[14] Xəzri N.Ə. Seçilmiş əsərləri. [4 cilddə] / N.Ə.Xəzri, redaktoru: Ağasəfa. – Bakı: Yazıçı, – c.1. –1983.  –s.137.
[15] Kürdoğlu H.H. Ata yurdum. – Bakı: Yazıçı, –1978, - s.56.

həm də azadlıq və sülh dövrünün həqiqi mənzərəsinin canlandırılmasını əyani şəkildə təsdiqləyir.

Dissertasiya işinin **"1960-2000-ci illər poeziyasında rəmzi-məcazi folklor obrazları"** adlı ikinci fəsli iki paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafı **"Təbiət obrazları fəlsəfi ümumiləşdirmə predmeti kimi"** adlanır. Təbiətə heyrətamiz baxışı, onu doğuran səbəbləri hər iki qütbün əlaqə və münasibətləri müstəvisində nəzərdən keçirəndə, istər-istəməz bu təbii varlığa insanın mistik (bu da təbiidir), daha sonralar fəlsəfi-assosiativ yanaşmasının ilkin əlamətlərini görmək, yaxından müşahidə etmək mümkündür.

Təbiət və insan paralellərinə öz yaradıcılığı boyu daim diqqət yetirən tanınmış şair Qasım Qasımzadə özünün "Gəlmişəm" adlı qoşmasında milli düşüncədə və təsəvvürdə özünə yer alan, müəyyən mənada folklor motivlərinə söykənən bir ideya və məzmunu qabartmağa çalışmışdır. Bəllidir ki, dərdi, nisgili dağlara üz tutub danışmaq folklor dünyasından gələn bir ənənə ilə bağlıdır. Şair burada ənənədən yaradıcı şəkildə yararlanmaqla öz hisslərini və düşüncələrini lirik və kövrək notlar üstə kökləməyə nail olur:

*Səndən ayrılanda, dağlar, cavandım,*
*İndi görüşünə qoca gəlmişəm.*
*Qayğılar üstümə düşdü-talandım,*
*Üzümə üz tutub borca gəlmişəm.* [16]

Hüseyn Arifin "Palıd", "Dağ kəli", "Durnalar uçurdu", "Söyüd payası", "Xəzan yeli" və bu qəbildən olan şeirlərdə həmin mahiyyət qabarıqdır. Şair vətən torpağı, onun füsunkar təbiəti ilə nəfəs alır.

Dağlara həsr olunan şeirlərin əksəriyyətində təsvir və təbiət peyzajları aparıcı məziyyətlərə çevrildiyi halda, Bəxtiyar Vahabzadənin poetik təqdimində bunun, demək olar ki, tamamilə əksi ilə qarşılaşırıq. Doğrudur, bu şeirdə də təbiət təsvirləri və təbii lövhələr kifayət qədər nəzərə çarpmaqdadır. Ancaq bu məqamlarda da şair öz orijinal və bənzərsiz müdrik fəlsəfi yanaşmalarını nümayiş etdirir:

*Göylər nərildəyib nərə çəkəndə,*
*Heyranam dağların hüsnünə mən də.*

[16] Qasımzadə, Q.X. İnsan min il yaşardı. Redaktoru: Müzəffər Şükür. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1973. – s.55.

*Yağış çisələyər şəhərə, kəndə,*
*Döyər zirvəsini dolu dağların*[17] .

Söhrab Tahir öz vətən həsrətini dağlarla bölüşməyi daha münasib sayır:

*Uzaq olsanız da dərdi bölməyə,*
*Yoxdu sizdən doğmam, yaxınım, dağlar.*
*Orda həsrətim var, gələ-gəlməyə,*
*Loğmanım, təbibim, nağılım dağlar* [18].

Məstan Günər təbiətdəki dağ obrazı və insan mənəviyyatına vurulan "dağ" məcazi anlamı arasına heyrətamiz bir uzlaşma gətirir:

*Dünyamı darıydı, yermi yoxuydu,*
*Dağları sinəmdə sıralayıbsan*[19].

Məmməd Aslan "dağ" obrazını "vətən" məfhumu ilə eyni poetik miqyas içərisində görür:

*Canlı vətən heykəlidir –*
*Dağlar mənim ürəyimdə*[20].

Zəlimxan Yaqub dağları xalqın, elin-obanın obrazı kimi görür. Borçalıda onu qarşılayan bir el ağsaqqalının dilindən dediyi sözlər unudulmaz poetik bir təəssürat yaratmaq gücündədir:

*Şair, sən ki bu dağlara gəlibsən,*
*Hər vaxt diri qalar, ölməz bu dağlar!*[21].

Göründüyü kimi, 1960-2000-ci il ədəbi-tarixi mərhələsində təbiət obrazları bir yandan folklor axarı ilə, başqa bir tərəfdən isə istedadlı qələm sahiblərinin öz təxəyyül imkanları səviyyəsində müəyyən simvolları və fəlsəfi ümumiləşdirmələri poetik axtarışların diqqət mərkəzində saxlayır. Bu mənada rəmzlərdən və folklor obrazlarından istifadə üsullarındakı özünəməxsus ifadə maneraları, fikir və düşüncə tərzi poetik mətnə tamamilə fərqli bir ovqat aşılaya bilir ki, bu da

---

[17] Vahabzadə, B.M. Əsərləri. [7 cilddə] / B.M.Vahabzadə, tərtibçi redaktoru: Azər Bağırov. – Bakı: Azərbaycan, –c.2. –2002. –s.556.

[18] Tahir, S. Ə. Bölmərəm daha. Redaktoru: M. Ələkbərli. –Bakı: Şur, –2001. 198 s.

[19] Günər M.R. Seçilmiş əsərləri. [2 cilddə] / M.R.Günər, redaktor: Əli Vəkil. – Bakı: XXI-Yeni Nəşrlər Evi, –c.2. – 2003. – s.135.

[20] Aslan M.M. Bilməcədi bildiyimiz bu dünya. Redaktoru: İslam Türkay. –Bakı: Yazıçı, – 1990. – s.97.

[21] Yaqub M.S. Bu dünyanın qara daşı göyərməz..., s.217.

haqqında bəhs edilən mərhələnin ümumi mənzərəsi fonunda kifayət qədər aydın görünür.

Bu fəsildə **"Etnos və elat həyat tərzi ilə bağlı rəmzi folklor obrazları"** adlı ikinci paraqrafı xalqın, etnosun həyat və məişətinin dağ, aran, köç-binə, təsərrüfat işinin incəlikləri yalnız özünün tarixən mövcud olan bir dövrünün mənzərəsi barədə müəyyən təsəvvür yaratmır. Belə bir xüsusiyyəti söz sənətinin, məxsusi olaraq ağız ədəbiyyatının bir çox xarakterik nümunələrində də izləmək mümkündür.

Osman Sarıvəllinin "Gətir, oğlum, gətir!" silsiləsində ömrün geridə qalan anları, doğma yerlərin, kənd həyatının, onun axar-baxarlı təbii mənzərələrinin, sazlı-sözlü ağır məclislərinin xatırlanması baxımından yaddaqalan bədii lövhələrdir.

Təbiiliyin, ilkinliyin beşiyi olan kəndin adət-ənənələri ilə şəhər məişət tərzinin özünəməxsusluğunu qarşılıqlı şəkildə-bütün təzadları və ziddiyyətli tərəfləri ilə poetik müstəviyə çıxarılır:

*Mən kənddə doğuldum, sən də şəhərdə*
*Sən beşikdə yatdın, mən də yəhərdə.*
*Yatdım boz otlaqda boz dovşan kimi!...*
*Gözümüz dünyaya açılan kimi.*
*Mən çomaq götürdüm, sən kağız, qələm,*
*Çomaq bir aləmdir, qələm bir aləm*[22].

Bu misilsiz poetik örnəkdə el müdriki, el ağsaqqalı, elat adamı şairin özüdür. Silsilədə folklor simvolikasına məxsus özünüifadə üsullarından yetərincə istifadə olunduğuna diqqət yetirməsi ilə bağlıdır. Vaxtilə Osman Sarıvəllinin "Gətir, oğlum, gətir!" şeiri haqqında bəhs edən müəlliflərin bəzən şairin kəndi idealizə etmək cəhdləri ilə bağlı irəli sürdükləri fikirlər həqiqəti əks etdirmir, əksinə, müəllif daha artıq səviyyədə kəndi və onun təbiətini, sadə, əməksevər insanlarını realist bir səpkidə təsvir etməyə üstünlük verdiyi açıq-aşkar özünü büruzə verir. Şair Qasım Qasımzadənin bütövlükdə Azərbaycan anasını təmsil etmək məqsədi ilə yaratdığı konkret obrazla-ana vasitəsilə elat həyatına, mənəviyyatına məxsus rəmzi-məcazi detalları və nüansları qabartmağa nail olur. Bu mənada "Anamgildədir" adlı qoşma özünün məna və məzmun səciyyəsi ilə seçilir. Şeirin ilk bəndləri ömrün geridə qalan

[22] Sarıvəlli O.A. Seçilmiş əsərləri. [2 cilddə] / Sarıvəlli O.A, redaktoru: Ə.Cəmil. –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –c.1. –1958, – s.123-124.

anlarını, uşaqlıq çağlarının xatirələrini göz önündə canlandırmaqla bərabər, həm də el-oba, doğma yurd-yuva haqqında səmimi söhbət açır:

*Şirinli-acılı ömür keçmişəm,*
*Yaxşını, yamanı görüb seçmişəm,*
*Evli-eşikliyəm, var işim-peşəm...*
*Uşaqlıq həsrəti anamgildədir*[23].

Məmməd Arazın "Babamın səsi" şeirində ərənlərin gücü, qüdrəti səsin, gülüşün vasitəsilə diqqətə çatdırılır ki, bu da dastan və nağıl qəhrəmanlarını xatırladır. Burada konkret bir babadan söz açılmır. Şairin diqqət önünə çəkdiyi baba bizim hamımızın əcdadı, kökü-köməkçidir.

Şair "Atamın kitabı" poemasını atası İnfil İbrahimova həsr edib. Əslində şair öz doğma atasının şəxsində əliqabarlı, işi-gücü əkin-biçində olan, dağların, qayaların, çöllərin, biçənəklərin, qarın, yağışın "dilini bilən" bir torpaq adamının simvolik obrazını yaradır. Poemanın başlanğıc hissəsində şair lirik qəhrəmanı vasitəsilə öz hisslərini və düşüncələrini aşağıdakı şəkildə oxucuya təqdim edir:

*Bu torpaq üstündə ömürlük varam,*
*Əzilsəm, torpağa dağılasıyam.*
*Nə vaxtsa dikəlib bulud yararam,*
*Nə vaxtsa göyərib dağ olasıyam*[24].

Daha sonra "...dağ ətəyində", çay kənarında yüz yaşı tamam olan, saf və təmiz, dağ qürurlu el ağsaqqallarının heç nəyə təmənna və umu-küsüsü olmayan canlı obrazı göz önünə gətirilir. Həmin poetik örnəklərdə kəndin təbiəti, dağ, yol, bulaq, meşə mənzərələri, sadə insanların saf və səmimi duyğuları şairanə bir pafosla təsvir olunur. Məstan Günərin "Anam" adlı şeirində ana obrazı elin-obanın ağbirçəyi, müşküllərini, qayğılarını nizama salan müqəddəs varlıq kimi poetik məna qazanır.

*Səndən ötrü qəribsədim,*
*A saçları yovşan, anam*
*Yaş ötdü, yaşın hökmünə*
*Öyrəşsən, uyuşan anam*[25].

---

[23] Qasımzadə Q.X. Seçilmiş əsərləri. Tərtib edəni: Nəriman Qasımoğlu. Ön sözün müəllifi: Yaşar Qarayev. – Bakı: Avrasiya press, – 2005, – s. 247.
[24] Araz M.İ. Seçilmiş əsərləri. Şeirlər, poemalar. edaktoru: V.Rüstəmzadə. –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1986, – s. 418.
[25] Günər M.R. Seçilmiş əsərləri. [2 cilddə] / M.R.Günər, redaktor: Əli Vəkil. – Bakı: XXI-Yeni Nəşrlər Evi, –c.2. – 2003. – s.181.

Bu şeirdə əslində Məstan Günər öz anasının sımasında bu gözəl mənəvi keyfiyyətləri daşıyan bütün anaları bizim hər birimizin anasını təsvir və tərənnüm edir.

Elat ruhunu təmsil edən simvolik folklor obrazlarının poeziyaya gətirilməsində də Məstan Günərin "Usuboğlu deyərdi" silsiləsində rast gəldiyimiz rəmzi şərti el aşığı Usuboğlu obrazını ayrıca vurğulamaq lazım gəlir. O, el məsəllərini tez-tez dilə gətirən, öz söz-söhbətləri ilə eli-mahalı ayıq-sayıq saxlayan bir söz sərrafı və hikmət bilicisidir:

*Orda Usuboğlu tənha dolanır,*
*O el nəğməkarı, el aşığıdır.*
*Sağına göz gəzdirir, sola boylanır,*
*Qolları sazının sarmaşığıdır* [26].

Məmməd İsmayılın poeziyasında xalqın adət-ənənəsinin, elat həyat tərzinin özünəməxsus mənzərələrlə canlandırılması diqqəti cəlb edən yaradıcılıq məziyyətlərindən biridir. "Əmək nəğmələri" silsiləsindən ilk şeir "Əkin, əkin..." adlanır. Şeirdə əkin bir çağırış, nida kimi səslənir, torpağa bağlanmağın, ona cani-dildən qulluğun faydaları, insanın əbədi, əzəli məskəni olan torpağın ruzi-bərəkət mənbəyi olması əsas məqsəd və niyyətə çevrilir.

Məmməd İsmayılın elat həyatının tarixi-etnoqrafik mənzərələrini, yaylaq həyatına bağlı adət və ənənəsini təsvir edən silsilələrdən biri də "Köç nəğmələri"dir. Məsələn, tərəkəmə həyat tərzini, xüsusən onun süd-ağartı məhsullarını hazırlamaq ənənəsini xatırladan misralar bu baxımdan səciyyəvidir:

*Ağızlıqdır, bulamadı*
*Hamısı öz balamadı.*
*Sonrası kətəməzdi*
*Sənə bəsdi, mənə bəsdir.*
*Şoru qonum-qonşu payı*
*Ayranı bir salamadır.*
*Qurd yemişi sənin olsun* [27].

Bilavasitə keçən əsrin 60-cı illərində yaradıcılığa başlayan şair

---

[26] Günər M.R. Seçilmiş əsərləri. [2 cilddə] / M.R.Günər, redaktor: Əli Vəkil. – Bakı: XXI-Yeni Nəşrlər Evi, –c.2. – 2003. – s.328

[27] İsmayıl M.M. Dünya bizim evimizdir. Şeirlər və poemalar. Redaktoru: Zülfüqar Şahsevənli. – Bakı: Gənclik, – 1984. – s.26.

Ələkbər Salahzadənin poeziyasında elat həyatının təsviri digər həmkarlarından fərqli bir şəkildə – ənənəvi şeir şəkillərdə deyil, əksinə, sərbəst vəzndə, müasir modernist bir üslubda qələmə alınması ilə diqqəti çəkir. "Yaylaq səhəri" adlı şeirdə müəllif elat həyatının etnoqrafik səhnələrini, təbiət peyzajları ilə birlikdə təqdim etmək yolu ilə gedir, təbiətin özünün yaşayış və gün-güzəran qayğılarına göstərdiyi təsir obrazlı şəkildə təsvir olunur.

Eldar Baxışın "Üçtəpə bayatıları"nda, "Oyun havaları" silsiləsinin "Tərəkəmə" hissəsində yurd, bağ-bağat, elat məişətinin, adət-ənənəsinin koloriti özünəməxsus boyalarla canlandırılır:

*Üçtəpə-üç dağ adı,*
*Baxdım yaram sağaldı*
*Qışda baba demişdim,*
*Yazda gördüm çağadı*[28].

Dilsuzun keçən əsrin 70-80-ci illərində qələmə aldığı silsilə xarakterli şeirlərdə "Kitabi-Dədə Qorqud" dastanları və onun aparıcı obrazlarına münasibət yalnız konkret bir boyun süjet və motivlərini nəql etməklə yekunlaşmır. Şeirdən nümunə gətirilən aşağıdakı misralarda bu cəhət özünü qabarıq cizgilərlə nümayiş etdirməkdədir:

*Bir nar ağacı var Gündoğanda,*
*Bir nar ağacı var Günbatanda,*

*Aralarında dünya.*
*Bir-birinə əyilib nar ağacları –*
*Dünyanın*
*üstündən əyilmək*
*sənə asan gəlməsin*[29].

Dilsuzun beşik nəğmələrini və laylalarını xatırladan "Ninni" adlı şeirində də Dədə Qorqudun, Qoç Koroğlunun advermə ənənəsinin xatırladılması tamamilə təbii və inandırıcıdır.

Xalq şairi Hüseyn Arifin keçən əsrin 80-cı illərində qələmə aldığı "Göyçəlilər, dağılmayın Göyçədən" adlı şeirini də həmin onilliyin

---

[28] Baxış E. (Ağayev Eldar Baxış oğlu). Üçtəpə bayatıları. Redaktoru: Çingiz Əlioğlu, – Bakı: Gənclik, – 1979. – s.33.

[29] Dilsuz. (Mustafayev Dilsuz Murtuz oğlu) Gündoğanla günbatanın nağılı, Ağ atlı oğlanın nağılı. Redaktoru: Vilayət Rüstəmzadə. – Bakı: Yazıçı, –1981. – s.46-47.

sonlarında baş verəcək müdhiş bir hadisənin – Qərbi azərbaycanlıların öz doğma ata-baba yurdlarından vəhşicəsinə deportasiyasının yaxınlaşdığı öz həmvətənlərinə poetik bir həyacanla çatdırılır, onların Dədə Qorqud nəfəsli bu yurdun əsil sahibi kimi dəyanət və əzmkarlıq nümayiş etdirməyə, babaların onlara əmanət qoyub getdikləri doğma yerləri tərk etməməyə çağırır:

*El çəkilər, yaxın köçər, yad itər.*
*Yurd sökülər, göz qaralar, od itər,*
*Nəsil gedər, tarix batar, ad itər,*
*Göyçəlilər, dağılmayın Göyçədən!*[30]

Şeirdə Azərbaycanın əzəli, əbədi torpaqları olan Göyçənin, ona yaxın ərazilərin etnoqrafik cizgiləri, adət-ənənəsi, həyat və məişət tərzi, dağı-aranı, ağır ellərin yurd-yuva qurduğu Ardanış, Babacan, Şişqaya, Kəsəmən, Toğluca, Ağbulaq, Zod, Cil kimi tarixi ərazilərin Dədə Qorqud yadigarı kimi xatırlanması, yurd sevgisini, milli yaddaşı oyadan təfərrüatlar kimi poetik mühakimənin mərkəzinə çəkilir. Poeziyada, epik şeirdə, nəsrdə və dramaturgiyada xüsusi olaraq Dədə Qorqud mövzusunun üstün mövqe qazanmasının müşahidə olunması belə bir həqiqətdən soraq verir. Xalq şairi Nəbi Xəzrinin "Torpağa sancılan qılınc" dramatik poeması, Arif Abdullazadənin "Ulu Qorqud", Nüsrət Kəsəmənlinin "Dəli Domrul" kimi süjet-kompozisiya baxımından orijinal səciyyə daşıyan epik nümunələri bu baxımdan diqqəti cəlb edir. Dədə Qorqud obrazına münasibət baxımından keçən əsrin 70-ci illərinin əvvəllərində qələmə alınan "Əfsanəli yuxular"[31] (1970-1973) poemasında Nəbi Xəzri yuxu arxetipindən istifadə yolu ilə oğuz ellərinin başına gələn hadisə və olayları epik təhkiyənin əsas hədəfinə çevirir. Poema beş yuxudan ibarətdir. Müəllif yuxu vasitəsilə uzaq tarixi keçmişə və onun yadda qalan ibrətamiz hadisələrinə münasibət bildirməyə çalışır. Hər yuxu öz məzmun və mündəricəsinə görə Dədə Qorqud dövrünün bir həqiqətlərini özündə əks etdirmək baxımından əlamətdar görünür: 1-ci yuxu: "Yuxuda bir talan gördüm", 2-ci yuxu: "Yuxuda bir ana gördüm", 3-cü yuxu:"Yuxuda bir çoban gördüm", 4-cü yuxu:"Yuxuda bir oğul

---

[30] Hüseyn A.C. Göyçəlilər, dağılmayın Göyçədən!. Seçilmiş əsərləri. Nəşrin tərtibçisi və redaktoru: Səlim Babullaoğlu. –Bakı: Xalq Bank, –2011. –28 s.

[31]Xəzri N.Ə. Əfsanəli yuxular // Seçilmiş əsərləri. [4 cilddə] / N.Ə.Xəzri, redaktoru: Ağasəfa. Bakı: Yazıçı, –c.4. –1984. –s. 61,

gördüm", 5-ci yuxu: "Yuxuda bir yuxu gördüm". Bu yuxların özündən törəyən bir bölmə də var: " Salur Qazanın nəğməsi – 60-cı yuxu: "Yuxuda bir səhər gördüm". Dramatik əsərlərə məxsus remarkalar vasitəsi ilə baş verən hadisələrin, obrazların hal və vəziyyətini aydın təsəvvür etmək üçün bir vasitə kimi istifadə olunması bu baxımdan təbii görünür. Qazan xanın Burla Xatın, Ulusun sevgilisi Çiçək (Qaraca Çobanın qızı) arasındakı epik mühakimələr yurd, vətən sevgisi, el-oba qayğılarını, nəsil-nəcabətdən irəli gələn dəyərlərin təcəssüm etdilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Hüseyn Arifin "Koroğlunun ölümü" poemasında Koroğlu obrazı xalqın mübarizə əzmini, yadelli işğalçılara, əzazil paşalara qarşı aparılan mübarizəni əks etdirən epik nümunə kimi mühüm maraq kəsb edir. Poemada qılıncla saz xalq mübarizəsinin iki vacib atributu kimi dəyərləndirilir. Epik təhkiyə vasitəsilə nəql olunan hadisələrdə Koroğlunun göstərdiyi igidlik və qəhrəmanlıqlar, hətta onu namərdcəsinə qətlə yetirən çaparların aqibəti son dərəcə faciəli bir sonluqla bitir.

Keçən əsrin 80-ci illərində Dədə Qorquda ünvanlanan, onun sınaqlardan, təcrübədən keçən öyüd və nəsihətlərini konkret bir dövrün həqiqət və gerçəklikləri ilə çarpazlaşdıran dəyərlərə münasibət baxımından şair Arif Abdullazadənin "Ulu Qorqud" poeması mühüm əhəmiyyət daşıyır. Ön sözdə Dədə Qorqud deyimləri, onun zaman boyunca qorunan və bəzi hallarda aşınmalara məruz qalan nüanslara münasibət bildirilir.

Poemanın strukturu əsasən "Kitabi-Dədə Qorqud" boylarından gətirilən, Dədə Qorqud deyimlərindən ibarət olan deyim və söyləmələr üzərində qurulmuş, hər bölmədə bir həyati və zəruri məsələnin, milli taleyüklü qayğının poetik ifadəsi əsas qayə və məqsədə çevrilir. Nüsrət Kəsəmənlinin "Dəli Domrul" poeması "Kitabi-Dədə Qorqud" dastanlarındakı "Duxa qoca oğlu Dəli Domrul boyu"nun motivləri əsasında yazılmış epik nümünələrdəndir. Doğrudur, poemanın personajları içərisində Dədə Qorqudun adı olmasa da, onun ruhu, nəfəsi hər bir surətin varlığınıda, düşüncə və münasibətində özünü aşkar şəkildə nümayiş etdirir.

1960-2000-ci illər arasında poetik məkanda folklor simvolikası xəttinin güclənməsi bir daha onu təsdiqləyir ki, keçən əsrin 60-cı illərindən başlayaraq poeziyada el adət-ənənəsinin yaşarı xüsusiyyətlərinə

fəal münasibət həm də milli koloritin, özünəməxsusluğun bariz bir görüntüsü kimi üzə çıxır, siyasi-ideoloji yasaqlara rəğmən milli ruhun və düşüncənin yaddaşlarda qorunub saxlanılmasına real imkanlar yaradır.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat zamanı nail olunan elmi müddəalar tezis şəklində diqqətə çatdırılır. Folklor simvolikasının poetik düşüncədə təşəkkül tapan tarixi yaradıcılıq ənənələrinin XX yüzillikdə, xüsusən əsrin 1960-2000-ci illərindəki poeziyada fəal mövqe qazanmasını doğuran ədəbi-ictimai amillər üzərində təfərrüatlı təhlillər aparılmaqla təbiət və cəmiyyət, insan və sosial gerçəklik qütblərindəki yaddaqalan məqamlar diqqət mərkəzinə çəkilir.

Simvolların təbiət və insan amili üzrə təsnifatını aparan nəzəri müddəalardan çıxış edilərək bu cəhətin poeziyada öz ifadəsini tapma imkanlarının keçən əsrin 60-cı illərindən etibarən intensiv xarakter daşıması Osman Sarıvəlli, Süleyman Rüstəm, Rəsul Rza, müharibə və müharibədən sonrakı yaradıcılıq mərhələlərinin təmsilçiləri olan Hüseyn Arif, N.Xəzri, B.Vahabzadə, Adil Babayev, Qabil, Əliağa Kürçaylı, Söhrab Tahir, Məmməd Araz, Nəriman Həsənzadə, Xəlil Rza Ulutürk, Hüseyn Kürdoğlu, Məstan Günər, Musa Yaqub, Məmməd İsmayıl, Zəlimxan Yaqub, Məmməd Aslan, Dilsuz, Ramiz Rövşən... kimi üslub və yaradıcılıq stixiyası ilə seçilən qələm sahiblərinin poetik axtarışlarına istinadən üzə çıxarılmasına cəhd göstərilir.

Folklor təhkiyəsinin, obraz və düşüncə tərzinin poetik mətnə sirayət etməsi həm də xəlqi koloritin, əsas ideya və mətləblərin çatdırılmasında əhəmiyyətli dərəcədə rol məsələsi zəngin faktlarla əsaslandırılır.

Təbiət obrazlarının vətən, xalq taleyi ilə bağlılığı "Nəticə" də kifayət qədər təhlilə cəlb edilən, sətiraltı yazıçı manerasına çevrilən anlayışlar kimi şərh edilməsi belə bir əlamətdar yaradıcılıq təcrübəsinin sayəsində gerçəkləşməsini real şəkildə təsdiqləyir.

Ayrı-ayrı qələm sahiblərinin sətiraltı yazıçı manerasından istifadə manerası haqqında əyani təsəvvür yaradır.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Qasımova A.Ə. Hüseyn Arifin yaradıcılığında ustadnamə ənənələri // – Bakı: AMEA-nın "Xəbərləri". Humanitar Elmlər seriyası, – 2014. № 2, – s.146-149.
2. Qasımova A.Ə. Hüseyn Arifin yaradıcılığında "Saz"obrazı // – Bakı: "Dədə Qorqud" jurnalı, elmi-ədəbi toplu, –2014. №1,– s.96-104.
3. Qasımova A.Ə. Poetik el müdrikliyini şərtləndirən amillər // – Bakı: "Dədə Qorqud" jurnalı, elmi-ədəbi toplu, –2015. №1, –s.66-72.
4. Qasımova A.Ə. Məmməd Arazın yaradıcılığında "Araz" obrazı // – Bakı: Dil və ədəbiyyat. BDU, Beynəlxalq elmi-nəzəri jurnal, – 2016. № 4 (100), – s.168-171.
5. Qasımova A.Ə. Məmməd Arazın "Atamın kitabı" poemasında el ağsaqqalı obrazı // – Bakı: AMEA-nın "Xəbərləri". Humanitar Elmlər seriyası, – 2016. № 2, – s.137-140.
6. Qasımova A.Ə. Hüseyn Arifin poemalarında xalq ruhunun poetik ifadəsi // – Bakı: Bakı Avrasiya Universiteti. Sivilizasiya jurnalı, – 2016. №1, – s.45-49.
7. Qasımova A.Ə. Folklore symbolism and writer's textual managment (based on the poetry of mammad araz) // Освіта і наука в умовах глобальних трансформацій матеріали Всеукраїнської наукової конференції 24-25 листопада 2017 р. Частина II Украіни: – с.242-244.
8. Qasımova A.Ə. Musa Yaqubun poeziyasında xalq ruhunun poetik inikası // – Bakı: Filologiya məsələləri, –2017, №14, –s.410-417.
9. Qasımova A.Ə. The image of the nature as a subject of philosophical generalization of Azerbaijan poetry in the second half of the twentieth century // Лıтература в контекстı культури. Зборник наукових праць, Випуск 27, КИЇВ: –2017, –с. 57-62.
10. Qasımova A.Ə. Zəlimxan Yaqubun "Hüseyin Saracli" dastan romanında el sənətkari obrazı // – Bakı: Filologiya məsələləri, –2018, № 15, – s.244-252.
11. Qasımova A.Ə. XX əsrin 70-80 cı illər epik şeirində el müdriki obrazı // – Bakı: Elm, –15 may 2020, s.98-103.
12. Qasımova A.Ə. Hüseyn Arifin "Dilqəm" poemasında folklor simvolikası // – Bakı: Elm, –24 iyul 2020, s.32-35.

Dissertasiyanın müdafiəsi "___" __________ 2021-ci il tarixində saat ___ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının nəzdində yaradılmış BFD 1.05 – Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı ş., Hüseyn Cavid prospekti. 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "___" __________ 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: __.__.2021

Kağızın formatı: A5

Həcm: 40166

Tiraj: 100